

■ Nizami Adışirin

## QAYITDIM

Nəfs adlı düşmənimdən sıyrıldım.
Göz yaşımda yaxalanıb duruldum.
Yaradanın dərgahına baş qoydum,
Nəfəsindən nəfəs alıb qayıtdım.

Düşdüm ana bətnindəki zülmətə
Boyun əydim Haqdan gələn qismətə.
Sarıdılar bədən adlı cəsədə,
Bu nəfəsə qəfəs alıb qayıtdım.

Neçə kərə torpaqlayıb gömdülər.
Neçə kərə paralayıb böldülər.
Qayıdanda yenə diri gördülər.
Əcəlimdən qisas alıb qayıtdım.

## DÜNYA TAMAM YASA BATIB

Dünya tamam yasa batıb
Çiçəkləri qəm içində.
Küləkləri qəm içində
Dənizləri qəm içində
Gəmiləri yasa batıb.

Dalğasının yox həvəsi
Sönüb şimşəyin nəfəsi.
Gəlmir çayın zümzüməsi
Balıqları yasa batıb

Ayı, günü ilə dönüb
Bulaqları lilə dönüb
Yağışları selə dönüb,
Buludları yasa batıb.

Qan qoxuyur havasından
Baş açılmır davasından.
Oğulların savaşından
Anaları yasa batıb.

Hər şeydə nizam pozulub
Səsi içinə qısılıb
Budağından quş asılıb
Ağacları yasa batıb.

## GECƏNİN MƏNZƏRƏSİ

Günəş batır astaca, yenə də axşam düşür.
Qızartısı közərən buludlarda qalıbdır.
Pərdə kimi açılır gecənin mənzərəsi.
Ulduzlar səpələnib, Ay da bədir alıbdır.

Bir azdan zülmət çökər meşələrə, dağlara
Pıçıldaşar yarpaqlar xəfif axşam mehində.
Duman enər dağlardan çəmənlərə, bağlara
Güllərin ləçəkləri yuyulacaq şehində.

Yığışacaq əl-ayaq işdən, həyət-bacadan.
Yanacaqdır evlərin çıraqları nur kimi.
Uzaqdakı hay-küyə itlər hürər ucadan.
Pozulacaq gecənin ağır sükut tilsimi.

Kimisi yorğun-ağrın işindən gileylənər.
Kimisi rahat-rahat girər isti yorğana.
Küləklər səfil-səfil küçədə veyillənər.
Özünü çırpa-çırpa qapılara, eyvana.

Çayların həzin səsi ruha məlhəm çiləyər.
Ürək anar keçmişi, nələri yada salar.
Axşamacan özünü toz-dumana bələyən
Yollar da mürgüləyib bir az dincini alar.

Duman gəzər çəməni, sürünər asta-asta
Cığırların sinəsi izlərdən şırım-şırım.
Hər yer qara libasa bürünər asta-asta
Yenə dərin sükuta dalacaq qarlı aşırım.

...İki ürək alışar şirin pıçıltı ilə.
Qız dillənir utanıb pıçıltıyla astadan:
- Bu yaxında qonşuda filankəsin toyu var.
Oğlan deyir: “Elçilər günü sabah sizdədir.
Biz də öz toyumuzu çaldırarıq bu bahar”.

...Üfüqlər qızarırdı dağların arxasında.
Gecə də yavaş-yavaş pərdəsini bükürdü.
Ağ gəlinlik donunda, “Vağzalı” havasında
Yuxusunda bir gözəl yenə gəlin köçürdü.

## SƏN HARDAN BİLƏSƏN?

Sən hardan biləsən nə çəkdiyimi?
Sən hardan biləsən alışmaq nədir?
Sən hardan biləsən gecələr boyu
Əriyib həsrətə qarışmaq nədir?

Sən hardan biləsən qərib şəhərdə
Həsrətli xatirən hey qovur məni.
Günəş də həvəssiz doğur səhərlər,
Axşamlar küləklər qorxudur məni.

Ayağım altından torpaq da qaçır.
Ürəyim hardasa inilti duyur.
Yarpaqlar başımın üstə uçuşur.
Küləklər ağacın donunu soyur.

Ürəklər sevgini başa çəkəndə.
Ürəyim sıxılır, qısılır səsim.
Sevənlər yanımdan qoşa keçəndə,
Sən hardan biləsən göynəyir içim?

Dolaşıq yollarda azıram tez-tez.
Səhv salıb ünvanı, bir gün gələsən.
Yuxumda adını anıram tez-tez
Sən hardan biləsən, hardan biləsən?

## O GÖZƏL

Ah, o gözəl sevdiyimi
Dilə saldı, car eylədi.
Sındı qəlbin telli sazı
Məni eldə xar eylədi..

Göz süzdürüb baxıb keçdi.
Bağrım başın yaxıb keçdi.
Qəlb evimi yıxıb keçdi
Ürəyim qubar eylədi.

Yaman tutdu tərs inadı.
Nə istədi, anlamadım.
Qırıldı qolum-qanadım
Könlüm ahu-zar eylədi.

## MƏN YENƏ GƏLMİŞDİM

Şəhərin canına cumub axşamdan,
Küləklər küçəni süpürür yenə.
Yağış da hey yuyur daş səkiləri,
Ayaq izlərimi itirsin deyə.

Mən yenə gəlmişdim uzaq keçmişdən,
İlləri adlayıb gələn səs kimi.
Mən yenə keçmişdim sizin küçədən,
Qanadsız arzutək, kor həvəs kimi.

Sən bunu duymadın, hardan biləsən,
Bir əlin mətbəxdə, bir əlin işdə.
Sən məni görmədin, hardan görəsən,
Buxardan su idi pəncərələr də.

Görsən də, tanıya bilərdin, görən,
İllərin ardından gələn bu “məni”?
Üzünü görmədim, fərqi nədir ki?
Mən elə kölgəndən tanıdım səni.

Bilirsən, mən yenə dəyişməmişəm.
Həmənki adamam, həmənki adam.
Zamandan geridə, tək sənə deyil,
Mən indi hər şeyə, hər kəsə yadam.

Hər zaman şən-şaqraq qaldın yadımda,
Mən isə dərd əkib kədər bitirdim.
Dəyişə bilmədim, bu inadımda
Özümü itirdim, səni itirdim.

Ümiddən özümə “ev” tikə-tikə.
Külüylə əlləşdim sönən közümün.
Dünən də gəlmişdim ümidlə, bəlkə,
Sizin küçənizdə tapdım özümü.

Yaxşı ki görmədim sənin üzünü.
Qorxuram karıxam görəndə yenə.
Bilmək istəyirsən, deyim düzünü
O gecə hər şeyi dedim küçənə

Bəlkə də, hər daşı tanıdı məni.
Daşların yaddaşı tanıdı məni.
Tək bircə küçənin tinində duran,
Kimsəsiz qaraçı qınadı məni.

Büzüb dodağını qısdı səsini,
Ovcuna pul basa bilmədim deyə.
Ovcuna bassaydım cibimdəkini,
Pul tapa bilməzdim evə getməyə.

Əllərim üşüdü soyuqda bəzən
Buxardan sulandı sizdə aynalar.
Tək soyuq deyildi məni üşüdən,
Əlimi cibimə salsam lap donar.

## TABLO

Salxım söyüd budaqları sallana-sallana,
Bir az yellənə-yellənə,
bir az nazlana-nazlana
Əyilib saçlarını yuyur
ətəyindən axan sakit suda.
Suda dərin bir sükut
Sanki balıqlar yuxuda...
Günəşin qızılı şüaları qırmanclayır
qoynu çat-çat olmuş torpağı.
Bərq vurur, parıldayır suyun üzü
Buxar olub nazlanır havada su damcıları.
Torpağın fəryadı toza bürüyür havanı.
Hardansa qayıdan yorğun qarışqa karvanı
Toz-torpaq içində yük dartır yuvasına sarı...
Budaqlarda civildəşən sərçələrin səsi.
Sərçələrdən qaçan cücülərin zümzüməsi...
Kəndin uşaqları sahilə gələndə
sahildə baş-başa verib dərdləşən çay daşları da
Bəlkə, bir azdan əlləri bir-birindən üzülərək
bir-birindən ayrı düşəcək
su üzərində süzülərək...
Qaçacaq su altında balıqların yuxusu da.
Suya atılmış bir tilovun ucunda,
Ölüm gələcək onlar üçün də.
Həyatla ölüm arası bircə anlıq...
Qarmağa ilişib çapalayan balıq
Bunu ən yaxşı sən anlayacaqsan.
Var gücünlə çapalayacaqsan.
Bu necə çapalamaqdır!
Bir az yavaş çapala barı.
Qorxutma balıqları...
Tilova düşən ilk balıq deyilsən ki,
Ya möcüzə göstər,
həyatını dəyiş bu balıqçının
Üç yox...
bircə arzusunu yerinə yetirib
özün də qayıt suya
Ya da sakit ver canını,
Bu fağır balıqçıya.
Sənin ölümün bu gün
Bir uşağın ağzına daddır.
Çapala, balıq, çapala..
Bunun adı həyatdır...